# QUBADLININ İŞĞALDAN AZAD EDİLMƏSİ VƏ ERMƏNİ VANDALİZMİ FAKTLARI

Məqalədə - Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən II Qarabağ savaşında Azərbaycan ordusunun Qubadlı rayonu ərazisində qazandığı zəfər tarixindən bəhs olunur. Göstərilir ki, Dövlət Başçımızla şanlı ordumuzun, xalqımızın sarsılmaz iradəsi, birliyi və qardaş Türkiyənin böyük mənəvi dəstəyi ilə qısa müddətdə bu müharibə Azərbaycanın böyük qələbəsi ilə sona çatmış, işğal altında olan bütün torpaqlarımız, o cümlədən, Qubadlı ərazisi erməni terrorçularından təmizlənmişdir. Eyni zamanda, rayonda azərbaycanlılara məxsus maddi-mədəniyyət abidələrinin Ermənistan silahlı birləşmələri tərəfindən dağıdılması, məhv edilməsi və mənimsənilməsi faktları, hərbi müdaxilə nəticə-sində Qubadlı rayonunun təbiətinə, onun ekologiyasına, iqtisadiyyatına vurulmuş ziyan hərtərəfli və konkret tədqiq edilir.

Azərbaycanın Qubadlı rayonunun çox zəngin, mürəkkəb, ziddiyyətli, həm də əhəmiyyətli, qürurlu tarixinin öyrənilməsi, təhlili və mənimsənilməsi xüsusi tədqiqat obyekti olmaqla yanaşı çox böyük əhəmiyyətə malikdir.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. Ermənistan silahlı birləşmələri 2016-cı ilin aprelində təxribat yolu ilə hərbi əməliyyata başladı. Məğlubedilməz Azərbaycan ordusu tərəfindən layiqli cəzasını alan erməni terrorçuları 2020-ci ilin iyulunda dövlət sərhədini pozaraq yeni əraziləri tutmaqla Azərbaycana məxsus transmilli boru kəmərlərini və dəmir yolu xəttini dağıtmağa, ələ keçirməyə can atdı. Lakin düşmən bu dəfə də dəmir yumruğu öz alnında görüb geri çəkilməli oldu. Əfsuslar olsun ki, bu da onlar üçün dərs olmadı. 2020-ci ilin avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana xüsusi hazırlanmış diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır. Dindirilmələrdən məlum olur ki, onlar Azərbaycana terror aktları törətmək üçün göndərilmişlər. Cəzasız qalacağına, işğal etdiyi torpaqları geri qaytarmayacağına əmin olan düşmən təhdid və hədələrini növbəti dəfə reallaşdırmaq üçün 2020-ci il 27 sentyabr saat 06:00-da silaha əl ataraq bütün istiqamətlərdə Azərbaycan ərazisini, yaşayış məskənlərini və mülki obyektləri artilleriya atəşinə tutdu! Ermənistan silahlı birləşmələrinin atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında ölənlər və yaralananlar olmuşdur. Bu, düşmən tərəfindən atəşkəsin ciddi şəkildə pozulması və hərbi əməliyyatların başlanması demək idi! Beləliklə, cavab vermək zorunda qalan Azərbaycan xalqı Qarabağı azad etmək uğurunda Vətən müharibəsinə başladı. Azərbaycan ordusu əks-hücum əməliyyatlarını reallaşdıraraq düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirib Ermənistan silahlı birləşmələrinin bir çox hərbi texnikasını sıradan çıxardılar. Azərbaycan silahlı birləşmələri cəsarətlə irəliləyərək bir sıra yaşayış məskənlərini, o cümlədən, Qubadlı şəhərini və onun kəndlərini uzunmüddətli əsarətdən xilas etdi.

Beləliklə, 23 oktyabr 2020-ci ildə Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri, 25-26 oktyabrda Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri, 28 oktyabrda Qiyaslı, Əbilcə, Qılıcan kəndləri, 30 oktyabrda Kavdadıq, Məmər, Mollalı kəndləri, 2 noyabrda İşıqlı, Muradxanlı, Milanlı kəndləri, 4 noyabrda Başarat, Qarakişilər, Qaracallı kəndləri, 7 noyabrda Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri, 8 noyabrda Yuxarı Mollalı, Aşağı Mollalı, Xocik kəndləri, 9 noyabrda Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri Ermənistan silahlı birləşmələrindən təmizlənmişdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva ilə birlikdə 2020-ci il dekabrın 23-də işğaldan azad edilmiş Qubadlı rayonuna səfər etmiş və dərin məzmunlu nitq söyləmişdir: “Bu gün Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma yurdu uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, bizim növbəti istiqamətimiz Qubadlı rayonu idi və şəhərdə ermənilər güclü istehkam qurmuşdular. İndi şəhərdən əsərəlamət qalmayıb, bütün binalar dağıdılıb, sökülüb və yol boyunca Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bütün kəndləri, qəsəbələri dağıdılıb. Ancaq burada, şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə Ermənistanın hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdirilib. Bu, özlüyündə hərbi cinayətdir. Bu cinayətə və bütün digər cinayətlərə görə Ermənistan dövləti cavab verəcəkdir. Qubadlını azad etmək üçün, ilk növbədə, biz bu yüksək-likləri götürməli idik. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Eyni zamanda, Ermənistan ərazisindən Azərbaycan əsgər və zabitinə atəş açılırdı. Nəzərə alsaq ki, Azərbaycan Ermənistan ərazisinə keçmək fikrində deyildi və mən bunu müharibə zamanı dəfələrlə bildirmişdim. Onlar hesab edirdilər ki, bu imkanlardan istifadə edib, bizim hücumumuzun qarşısını ala bilərlər. Buradan, Qubadlı şəhərindən Ermənistan sərhədinə, bax, o istiqamətdən 5 kilometr məsafədir. Həm oradan ağır artilleriya ilə, həm də bu yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək bizim əsgərlərimizi, hərbçilərimizi atəşə tutmuşdular. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər. Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi – gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda, strateji yüksəkliklər ələ keçiriləndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün. Ermənistan silahlı birləşmələri bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya gedəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Biz Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığnaq, Çanaxçı və Daşaltı kəndini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu. Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır. Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat – bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim qələbəmizi şərtləndirdi. Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir. Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət göstərir”!

Qeyd edək ki, 1993-cü ilə qədər Qubalı rayonunun 30 minə qədər əhalisi var idi. Birinci Qarabağ müharibəsində Qubadlı uğrunda gedən döyüşlərdə 54 nəfər şəhid olub. Rayonun müdafiəsi uğrunda döyüşlərdə yerli milis şöbəsinin 12 nəfər əməkdaşı şəhid olmuş, 7 nəfər yaralanmış, 3 nəfər əlil olmuşdu. Ümumilikdə, Birinci Qarabağ müharibəsində Qubadlının 238 sakini şəhid, 190-ı əlil olmuşdu.

Azərbaycanın öz torpaqlarını hərb yolu ilə işğaldan azad etməsilə Ermənistana, eləcə də, bu münaqişəyə indiyədək göz yumanlara, hətta haqq qazandırmağa can atanlara cavabı oldu. Azərbaycan işğaldan azad etdiyi torpaqlarda, o cümlədən, Qubadlı rayonunda düşmənin tariximizə tutduğu divanı, dini və mədəni abidələrimizə qarşı vandal davranışı dünyaya nümayiş etdirmək imkanı qazandı. 27 ildir ki, işğal altında saxlanılan Qubadlı rayonunun kəndlərinin xarabalığa çevrilməsi Ermənistanın əslində bu torpaqların əsl sahibinin bir gün geri dönəcəyinə olan inamından xəbər verir. Azərbaycan haqq savaşında qalib gəlməklə yanaşı, işğalçı dövlətin əsl simasını ortaya qoymaq imkanı əldə etdi. Həmin tarixi abidələrimizi nəzərdən keçirməklə bir daha erməni vandalizminin şahidi oluruq.

Beləliklə Birinci Qarabağ savaşında Ermənistan silahlı birləşmələri tərəfindən Qubadlı rayonunda bir şəhəri, 93 kəndi, 205 mədəni-məişət obyektini, 12 tarixi abidəni yandırıb və talan etdilər.

***(Davamı 5-ci səhifədə)***

# QUBADLININ İŞĞALDAN AZAD EDİLMƏSİ VƏ ERMƏNİ VANDALİZMİ FAKTLARI

*(Əvvəli 3-cü səhifədə)*

Qubadlının işğalı zamanı 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı Tarix-Diyarşünaslıq Muzeyi də talan edilmişdir. IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrə aid "Qalalı" və "Göyqala" abidələri, XIV əsrdə tikilmiş "Dəmirçilər" türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr işğaldan azad edildikdən sonra tamamilə dağılmasını görürük.

Qubadlı rayonunun işğal altında olan əraziləri öz təbii ehtiyatlarına, iqlim-torpaq şəraitinə və iqtisadi potensialına görə Azərbaycan iqtisadiyyatında mühüm əhəmiyyəti var idi. Vaxtilə rayonun ərazilərdə fəaliyyət göstərən 17 sənaye müəssisəsi respublika iqtisadiyyatında mühüm yer tuturdu. Burada yeyinti, yüngül, tikinti materialları sənaye sahələri üzrə müəssisələr daha çox inkişaf etmişdi.

Keçən əsrin 90-cı illərinin əvvəllərində, təkcə bir ildə Qubadlı rayonunda 6,7 min ton taxıl, 2,9 min ton üzüm, 55 ton kartof, 0,6 min ton ət, 3,3 min ton süd, 14,4 min ton barama istehsal olunurdu. Təəssüflər ki, 27 il müddətində dövlətimiz hər il bütün bunlardan məhrum olmuşdur. Ermənistan silahlı birləşmələri Qubadlı rayonunda 84 kitabxananı, 44 klubu, 12 mədəniyyət evini, 1 muzeyi, 7 məscidi, 2 uşaq musiqi məktəbini, 40 tarixi abidəni işğal etmiş və dağıtmışdır.

Zəngin coğrafi şəraitə, mülayim iqlimə, münbit torpağa malik Qubadlının faydalı qazıntılarını ermənilər açıq şəkildə talan etmişlər. Belə ki, Qubadlı rayon ərazisindən axan Bərgüşad və Həkəri çaylarındakı zəngin balıq növləri ermənilər tərəfindən talan olunmuşdur.

Qubadlı rayonu ərazisində ehtiyatları 6247 min kub m. olan və mişar daşı istehsalı üçün yararlı, istismara cəlb edilmiş Hacılı tuf yatağı, kərpic istehsalına yararlı Xanlıqkənd (ehtiyatlan 990 min kub m.) gil yatağı, ehtiyatları 1,1 min ton olan Eyvazlı bəzək - əlvan daşlar yatağı, istismar ehtiyatları 84 min kub m gün olan Qubadlı yeraltı şirin su yatağı vardır. Bu və ya digər təbii mənbələr qəddarcasına mənimsənilmişdir.

Rayonda 1965-ci ildən Hacılı tuf yatağı bazasına mişar daşı istehsalı üzrə karxana fəaliyyət göstərmişdir, həmin daşlardan tikinti və abadlıq işlərində geniş istifadə olunurdu və rayonun tələbatı ödənilirdi. Qubadlı şəhərində isə 1983-cü ildən yerli materiallarla işləyən mərmər sexi fəaliyyət göstərirdi. Sexdə üzlük və abidə daşları istehsal olunurdu. Sexdə Muradxanlı, Başarat və Armudlu kəndlərinin açıq sahələrində olan mərmər daşlarından istifadə edilirdi. İşğal altında olduğu dövrdə bu sex və yataqlardan ermənilər gəlir mənbəyi kimi sərbəst şəkildə istifadə etmişlər. Erməni əsarətində olan bu faydalı qazıntı yataqları qəddarlıqla istismar olunmaqla böyük dağıntıya məruz qalmışdır.

Qubadlı ərazisində diametri 80 sm, hündürlüyü 35 m, yaşı 160 il olan 2 ədəd şərq çinarı, diametri 150 sm, hündürlüyü 20 m, yaşı 300 il olan 2 ədəd şərq çinarı, Gödəklər kəndində diametri 80 sm, hündürlüyü 8 m, yaşı 150 il olan 1 ədəd saqqız ağacı, Xanlıq kəndində diametri 800 sm, hündürlüyü 40 m, yaşı 1600 il olan 3 ədəd şərq çinarı, Zilanlı kəndində Daşlı adlanan yerdə diametri 150 sm, hündürlüyü 35 m, yaşı 300 il olan 1 ədəd şərq çinarı pasportlaşdırılaraq dövlət qeydiyyatına alınmış təbiət abidəsi kimi qorunurdu. İşğaldan azad olunduqdan sonra, yuxarıda adıgedən nadir təbiət incilərindən heç bir əsər-əlamət qalmadığının şahidi oluruq.

Muradxanlı kəndində "Qalalı" mağarası və Əliquluuşağı kəndində "Bulaq" abidə kompleksi də ən qədim təbiət abidələrindən hesab olunurdu. Qubadlı şəhərində, Mahmudlu, Qayalı, Məlik Əhmədli, Ləpəxeyranlı, Avdalanlı, Xıdırlı, Balahəsənli, Armudluq və Qədili kəndləri ətrafındakı təbii qayalar heykəlləşmiş cəngavər insanlara bənzəyirdi. Qubadlı rayonunun Poladlı kəndinin qarşısındakı "Kəmər qaya", "Alçaqaya" və onların ətrafındakı əhəng daşlardan düzülmüş sədd, "Pir-şirin" bulaq qaya kompleksi, "Abdalanlı" dərəsindəki "Damcı bulaq" ən gözəl təbiət guşələri idi. Başarat kəndi ərazisindəki "Topağac" təbiət mənzərəsi əfsanəvi cənnəti xatırladırdı. Bütün bu və digər əfsanəvi abidələrdən heç bir əlamət qalmamışdır.

Bütün bunlarla yanaşı Qubadlı rayon Dövlət Təbiət Yasaqlığı 1969-cu ilin iyulunda Qubadlı və Laçın rayonlarının ərazisində yaradılmış, idarəetmə və maliyyə cəhətdən Bəsticay Dövlət Təbiət Qoruğuna tabedir. Yasaqlıq Qubadlı rayonunun şimal və Laçın rayonunun cənub hissəsində dağ-bozqır sahələrini əhatə edirdi. Bu yasaqlığın yaradılmasında məqsəd həmin ərazilərin heyvanat aləmini qorumaqdan ibarət idi. Qubadlı yasaqlığının sahəsi 20 min hektardan ibarət olmuşdur. Ərazinin ekoloji amilləri burada heyvan və quşların normal məskunlaşmasına tam şərait yaratmışdı. Yasaqlıqda 110 çöl donuzu, 25 qonur ayı, 25 canavar, 310 çaqqal, 320 tülkü, 45 cüyür, 430 dovşan, 75 porsuq kimi heyvanlar vardı. Quşlardan ən çox kəklik (560) yayılmış, həmçinin qırqovul, turac və bildirçin də bu yerlərin daimi sakinləri idi. Hazırda erməni işğalından azad olan bu yasaqlığın vəhşicəsinə istismar olunması aşkarlanmışdır.

Qubadlı rayonunda aparılmış müşahidələr zamanı Hal və Məmər kəndlərindəki həyətyanı sahələrdə doğranmış çoxillik ağacların kötükləri görünür, həmin ərazilərdə törədilmiş yanğınların qalıqları aydın seçilir. Kəndlərdə yaşayışdan və iri diametrli çoxillik ağaclardan əsər-əlamət yoxdur.

Qədim tarixi keçmişə malik olan Qubadlı rayonu zəngin quruluşlu abidələrə malikdir. Qubadlı ərazisində Son Tunc-Erkən Dəmir dövrlərinə aid yaşayış məskənindən tapılmış arxeoloji abidələr, Əliquluuşağı kəndindəki eyni dövrə aid 2 qala, Muradxanlı kəndindəki eyni dövrə aid daha bir qala, Əliquluuşağı, Balahəsənli və Zor kəndlərindəki IV əsrə aid sığınacaqlar, Mahmudlu kəndində məlum dövrə aid daha bir sığınacaq, Muradxanlı kəndində V əsrə aid Qalalı qalası, Gavur dərəsində IV əsrə aid mağara və Yazı yaylasında XIV əsrə aid Cavanşir türbəsi, Əliquluuşağı kəndində X əsrə aid Göy qala və XIX əsrə aid məzarlar, Damcılı kəndində XIII-XIV əsrlərə aid məzarlar, Gürcülər kəndində XVIII əsrə aid məzar, XIX əsrə aid Macəra ibadətgah bulaq kompleksi, eyni əsrə aid Dondarlı kəndindəki məscid, Hacıbədəl körpüsü və s. Qubadlının qədim mədəni irsinə aid nümunələri idi. Təəssüflər olsun ki, bu gün həmin tarixi abidələrdən əsər-əlamət qalmayıb.

Qeyd edək ki, Qubadlı Qafqaz Albaniyasının bir hissəsi olmuş, həmçinin Bəşərat, Məzrə və Yuxarı Cibihli kəndlərində Alban ibadətgahları var idi. Qubadlının arxeoloji abidələri, xüsusilə də qəribə görkəmli səkkiz künclü məzarlar XII əsrə aid idi. Dəmirçilər kəndindəki XIII-XIV əsrlərə aid məzarlar da eyni görü-nüşlü olmuşdu. Gürcülü kəndindəki XVIII əsrə aid türbə 8 künclü bina olub üzəri 16 künc dam ilə örtülmüşdü. Bina 7,84 metr hündürlükdə, qeyri-bərabər enlikdə olan fəsaddan ibarət olub, əhəngdaşı ilə tikilmişdi. Bununla yanaşı Qubadlı rayonunun Dəmirçilər kəndi ərazisində iki qülləvarı türbə var idi. Onlardan birincisi dağ çayı Ağaçayın sağ sahilində yerləşirdi. Türbə, planda səkkizbucağlı formada idi (bir tərəfi 1,9 m). İçəridə qapı gözü qarşısında, üzdə kiçik mehrab taxçası quraşdırılmışdı. İkinci türbə Arpaçayın sağ sahil yamacının yanında, Dəmirçilər və Dondarlı kəndləri arasında idi. Əlverişli yerinə görə türbə hətta uzaq yerlərdən də yaxşı görünürdü. Onun da planı səkkizbucaqlı formada idi. Bu türbələrin hər ikisi XIII-XIV əsrlərin abidələri hesab edilirdi. Dondarlı, Məmər, Mahruzlu, Dağtumas və digər kəndlərdə məscidlər, Xələc kəndində XV-XVI əsrlərə aid dini kompleks, Qayalı, Aşağı Xocamsallı, Boyunəkər, Dağtumas və Yusifbəyli kəndlərində məzarlar, Gavur dərəsində mağara ibadətgah (IV əsr), Əliquluuşağı kəndində Göy qala abidələri (V əsr), Dəmirçilər kəndində iki türbə (XIV əsr), Gürcülü kəndində türbə (XVII), Xocamsaxlı kəndində türbə (XVIII), Əliquluşağı kəndində mağara ibadətgah, Xocamsaxlı kəndində qala, Seytas kəndində Anabat və bir çox əfsanəvi abidələr (Oğlan-qız qayası, Sınıq körpü və s.) Qubadlının qədim tarixindən bəhs edirdi. Bu qədim tarixi türbələrin dağıdılması günün acı reallığıdır.

Digər abidələrlə yanaşı, Qubadlı bölgəsi qalaların sayına görə fərqlənir. Onlardan biri Qalalı qəsri Əliquluuşağı kəndində idi. Qalalı qəsri hər tərəfdən qayalarla əhatə olunmuşdu və Qəsrə şimal tərəfdən yol var idi ki, bu yol nəhəng daşlarla qorunurdu. Siklop hörgü qaya daşlarından tikilmişdi. Bir çox tikililərin izləri qalmaqda idi və qalanın arxa hissəsinin görünüşü sübut edirdi ki, qalalar yalnız müdafiə qurğusu kimi, yəni, düşməndən müdafiə məqsədilə istifadə edilməyib, həm də yerli sakinlərin daimi yaşayış məskəni olub. Başqa bir qala Aşağı Xocam-saxlı kəndində idi. Onun quruluş formasına görə IX-XII əsrlərə aid olduğu güman edilirdi, lakin burada Tunc və Orta əsrlər dövrünə aid çoxlu sayda saxsı qablar tapılması sübut edirdi ki, qədim dövrlərdən orta əsrlərədək bu ərazi yaşayış məskəni olmuşdur. Təpələr üzərində tikilmiş təbii istehkama bənzəyən qala şimal, cənub və qərbdən qayalarla müdafiə olunurdu. Bir qədər zəif olan cənub hissə yarımdairəvi bürcləri olan 3 qala ilə müdafiə olunurdu. Qala yerli daşlardan tikilmişdi. Qala divarlarından başqa burada sığınacağa bənzər tikilinin qalıqları da var idi. İşğaldan azad edildikdən sonra həmin qədim qalaların xarabalığa çevrilməsi faktı öz təsdiqini tapıb.

Qubadlı rayonunun işğalı burada yaşayan əhaliyə böyük mənəvi zərbə vurdu. Darmadağın edilmiş ata-baba yurdları mərd Qubadlı əhalisinin əzmini qıra bilmədi. Çünki onların arxasında uzaqgörən və müdrik lider – Heydər Əliyev dayanmışdı. Ümummilli lider 7 sentyabr 1996-cı ildə Qubadlı rayon ictimaiyyəti ilə görüşü zamanı rayonun işğalını ürək yanğısı ilə xatırlamışdır: "Qubadlı rayonu, ümumiyyətlə, maldarlıq rayonu idi, amma eyni zamanda orada tütünçülüyü inkişaf etdirdik, həm də üzüm bağları saldıq. Rayonun iqtisadiyyatı xeyli dəyişdi. Bütün bunlar insanlara yeni evlər, yeni mülklər tikmək, yaşayış şəraitini yaxşılaşdırmaq, mədəniyyəti inkişaf etdirmək üçün gözəl şərait yaratdı... Bunlar gedibdir və bu mülkün, bu varın sahibləri qaçqın vəziyyətində respublikanın cürbəcür bölgələrində çadırlarda yaşayırlar. Bu, şübhəsiz ki, sizi də incidir, amma bilin ki, məni də həddən artıq incidir". ...İnanıram ki, tezliklə bütün torpaqlarımız işğaldan azad olacaqdır... Biz bunu edə bilməsək də gələcək nəsil bu prosesi reallaşdıracaqdır". Bu gün, Ulu Öndərin ideyalarını Gənc Lider İlham Əliyev həqiqətə çevirdi. Bütün Qarabağ işğaldan azad edildi.

2020-ci il dekabrın Qubadlıya, səfər edən Ali Baş Komandan İlham Əliyev söylədiyi nitqdə demişdir: "Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılmış, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada erməni hərbçiləri və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu mənfur cinayətlərin hamısı sənədləşdirilir. Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. ...Biz öz istəyimizə nail olduq. Dekabrın 10-da Zəfər paradı keçirildi. Zəfər paradında biz düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasını nümayiş etdirdik və öz hərbi potensialımızı nümayiş etdirdik. Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. Biz qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır. Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən, hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!"

***Nazim* Məmmədov**
***Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qarabağ tarixi" şöbəsinin baş elmi işçisi, t.e.d.***